# III "Qorqud Ata" Türk Dünyası Film Festivalı başa çatdı




**Dünən Heydər Əliyev Mərkəzində "Şuşa - Türk Dünyasının Mədəniyyət Paytaxtı 2023" ili çərçivəsində III "Qorqud Ata" Türk Dünyası Film Festivalının təntənəli bağlanışı olub.**

Mərasimdə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, rəsmi şəxslər, türk dünyasının tanınmış sənət adamları və digər qonaqlar iştirak ediblər. Arzu Əliyeva mərkəzdə milli geyimlər və Azərbaycanın klassik və müasir filmlərinin posterləri olan sərgi ilə tanış olub.

Sonra mərasimdə Azərbaycan paytaxtında 4 gün davam edən festivala həsr olunan videoçarx nümayiş olunub.

TÜRKSOY-un Baş katibi Sultan Raev festival barədə təəssüratlarını bölüşərək bu sənət bayramının türk dünyası filmlərini tanıtmaq üçün böyük bir fürsət olduğunu bildirib: "Bu festivala gələcəkdə də dəstək olmağa davam edəcəyik". O, TÜRKSOY-un xüsusi mükafatını Xalq artisti Fəxrəddin Manafova təqdim edib.

Münsiflər heyətinin sədri, Xalq artisti Vaqif Mustafayev festivalın əhəmiyyətindən bəhs edib.

Daha sonra sənədli və bədii filmlər müsabiqəsi üzrə münsiflər heyəti qonaqlara təqdim olunub. Türk dünyası kinematoqrafiyasına verdiyi töhfələrə görə Hocaqulu Narlıyev, Mayagözəl Aymedova, Çarlıyar Seyidli (hər üçü Türkmənistan), Serdar Gökhan, Metin Günay (hər ikisi Türkiyə), Həmidə Ömərova, Oqtay Mirqasımov, Orman Əliyev, Ağasi Məmmədli (hamısı Azərbaycan), Firdavs Abduxalikov (Özbəkistan) və Azamat Satıbaldı (Qazaxıstan) fəxri mükafatlarla təltif olunublar.

"Jambıl" filminə görə qazaxıstanlı rejissor Dosjan Janbotaev, "Hep 33 yaşında" filminə görə türkiyəli rejissor Murat Pay xüsusi mükafata layiq görülüb.

"Ən yaxşı aktyor" nominasiyası üzrə mükafatı Ahmet Amandurdiyev ("Qızıl alma", Türkmənistan), "Ən yaxşı aktrisa" nominasiya üzrə mükafatı isə Təhminə Rafaella ("Məryəm", Azərbaycan) qazanıb.

"Ən yaxşı ssenari" mükafatına Özbəkistan – "Abdulla Oripov" (Özbəkistan) filmi layiq görülüb. "Ən yaxşı rejissor" nominasiyasında Zhuraeva Asel Talibzhanova ("Tanrıverdi", Qırğızıstan) qalib olub.





"Ən yaxşı sənədli film" nominasiyasında 3-cü mükafat "Mənim dairəm" (Özbəkistan), 2-ci mükafat "Arqau" (Qazaxıstan), 1-ci və əsas mükafata isə "Sonuncu" (Azərbaycan) filmləri layiq görülüb.

"Ən yaxşı bədii film" nominasiyasında "Yıldız tozu" (Türkiyə, rejissor Ahmet Sönmez) filmi qalib olub. Mükafatı Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva təqdim edib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli növbəti "Qorqud Ata" festivalının Türkmənistan Anev şəhərinə ötürülməsini və orada keçiriləcəyini simvolizə edən "Durna quşu" mükafatını Türkmənistanın nümayəndəsinə təqdim edib. Nazir Bakı festivalının əhəmiyyətini yüksək qiymətləndirərək əməyi keçənlərə təşəkkürünü bildirib.

Bədii hissədə "Dədə Qorqud" dastanının motivləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya nümayiş olunub.

Xatırladaq ki, festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 8–11-dək paytaxtımızda keçirilib.

**XQ**